# Səhiyyə işçilərinin peşə bayramında

17 iyun—Tibb İşçiləri Günü rayonun səhiyyə işçiləri tərəfindən qeyd olunmuşdur. Tibb işçiləri əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə tər gül dəstələri düzmüş, ulu öndərin əziz xatirəsini yad etmişlər.

Görkəmli oftalmoloq alim Zərifə Əliyevanın da abidəsi ziyarət olunmuş, qarşısına tər qərənfillər düzülərək xatirəsi anılmışdır.





Tibb işçilərinin bayram tədbiri «Tufandağ» oteldə musiqi sədaları altında davam etdirilmişdir. Aparıcı tibb işçilərinin bayram tədbirini açıq elan etdi, təbrik üçün söz Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verildi. Cənab başçı çıxış edərək səhiyyə işçilərini salamladı və peşə bayramı münasibətilə təbrik etdi, onlara çətin və şərəfli işlərində uğurlar arzuladı.

Çıxışına davam edən hörmətli başçı Azərbaycanın səhiyyə tarixinin inkişaf mərhələsini ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə əlaqələndirərək, hər sahədə olduğu kimi, səhiyyə sistemində də müsbət dəyişikliklərin baş verdiyini qeyd etmişdir. Həmçinin ölkə başçısı cənab İlham Əliyevin səhiyyə işçilərinə göstərdiyi diqqət və qayğıdan və bu qayğı nəticəsində son illər respublikamızda, eləcə də Qəbələ rayonunda səhiyyənin inkişafından, göstərilən tibbi xidmətin səviyyəsindən razılıq hissi ilə danışmışdır.

Tədbirdə rayon icra hakimiyyəti və mərkəzi xəstəxana rəhbərliyi tərəfindən bir qrup tibb işçisi fəxri fərmanla təltif olundu.

Rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov və başqaları çıxış edərək tədbir iştirakçılarını salamlamış və bu gün münasibətilə onları təbrik etmişlər.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Cənubi Koreyanın rəsmisi Qəbələ rayonuna səfərə gəlmişdir

Cənubi Koreya Respublikasının Gyeongsangbuk-do əyaləti qubernatorunun beynəlxalq əlaqələr üzrə müavini Honq Jong-kyoung Qəbələ rayonuna səfərə gəlmişdir. Səfər çərçivəsində qonaq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevlə görüşmüşdür. Görüş zamanı tərəflər əyalətlər arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparmışlar. Honq Jong-kyoung daha sonra rayonun tarix-mədəniyyət abidələri, turizm infrastrukturu və istehsal müəssisələri ilə yaxından tanış olmuşdur.





**«Qəbələ».**
**Fotolar S. Umuyevindir.**

# Zəmanəmizin Azərbaycan nümunəsi

**(Əvvəli 2-ci səhifədə).**

Qürurverici hal yenidən təkrarlanır. Ölkəmizin ilk Avropa Oyunlarına hazırlığı müxtəlif səviyyələrdə təqdir olunur, alqışlanır. Hələ ki, konkret standartları olmayan mötəbər idman tədbirinə belə yüksək təşkilatçılıqla hazırlaşmaq, infrastrukturdan tutmuş texniki məsələlərə, viza rejiminə qədər bütün hazırlıqları yüksək səviyyədə həyata keçirmək təkcə layiqli təşkilatçılığın yox, həm də həqiqi vətənpərvərliyin, Azərbaycan sevgisinin təcəssümüdür. Azı 7-8 illik hazırlıq prosesini Azərbaycan cəmi 2 il yarıma yekunlaşdırdı. Bəli, möhtərəm Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva I Avropa Oyunlarına hazırlığı yüksək vətənpərvərliklə, xalqa və dövlətə sonsuz sevgi hissi ilə həyata keçirdilər.

Qısa müddətdə "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) yaradıldı, oyunlara hazırlıq işlərinə start verildi. Genişmiqyaslı hazırlıq prosesinə təcrübəli yerli və əcnəbi mütəxəssislər cəlb olundular. Yeni idman qurğuları inşa edildi, mövcud idman mərkəzləri əsaslı təmir edildi. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Vaterpol Arenası, Dağ Velosipedi Parkı, Bakı Atıcılıq Mərkəzi, Bakı Kristal Zalı, Heydər Əliyev adına İdman Arenası və digər idman obyektləri mötəbər yarış üçün tam hazırdır.

Biz bu mərasimə sadəcə, köhnə qitənin mühüm idman tədbiri kimi baxmamalıyıq. Bu, ilk növbədə, mühüm siyasi və iqtisadi əhəmiyyəti olan tədbirdir. Azərbaycan növbəti dəfə öz imkanlarını dünyaya təqdim edəcək, milli həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlverişli tribuna qazanacaq. Artıq bu proses başlayıb. Müxtəlif ölkələrdən gəlmiş qonaqlar, nüfuzlu kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının təmsilçiləri ölkəmizdəki inkişaf və tərəqqini, demokratikləşmə sahəsində əldə etdiyimiz uğurları səmimi etiraf edirlər.

Sabah - iyunun 12-də start götürəcək möhtəşəm idman tədbiri Azərbaycan xalqının zəngin mədəniyyətinin, incəsənətinin, musiqisinin, mətbəx nümunələrinin dünya miqyasında təbliği baxımından əvəzsiz imkanlar açır. Avropa bir daha xalqımızın nəcibliyinin, qonaqpərvərliyinin, isti münasibətinin şahidi olacaq. Ölkəmizin turizm potensialı daha da möhkəmlənəcək. Mindən artıq əcnəbi jurnalist Azərbaycan haqqında obyektiv materiallar hazırlayacaq. Bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması baxımından da əhəmiyyətlidir.

Bir sözlə, bu əlamətdar idman tədbiri bizim üçün ciddi sınaqdır. Xüsusən də turistlərin çoxluq təşkil edəcəyi bir zamanda hər kəs azərbaycanlı kimi əxz etdiyi sağlam dəyərləri, adət-ənənələri unutmamalıdır. Ağsaqqallar şurasının sədri kimi gənclərlə görüşlərim zamanı onlara zəruri tövsiyələrimi verir, onlara ölkə rəhbərinin gözləntilərini çatdırıram. Məhz gənclər - Avropa Oyunları könüllüləri ölkəmizin əcnəbilərə lazımi səviyyədə təqdimatında mühüm mövqeyə malikdirlər. Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə gün əvvəl Avropa Oyunları könüllüləri ilə səmimi görüşü də təsadüfi deyildi. Bu, gəncliyə verilən mühüm mesaj idi. Bəli, gənclərimiz də Azərbaycanı layiqincə təmsil etməli, ölkəmizin nüfuzunun yüksəlməsinə sanballı töhfələrini verməlidirlər.

Əlamətdar idman tədbirinin yüksək səviyyədə keçəcəyinə qəti əminliyimiz var. Çünki ilk Avropa Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinə Mehriban xanım Əliyeva kimi yüksək təşkilatçı və vətənpərvər rəhbərlik edir. Azərbaycan Prezidenti İlham Əliyevin ciddi dəstəyi, uğurlu təşəbbüsləri, Mehriban xanım Əliyevanın novator idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan ilk Avropa Oyunlarının standartlarını artıq müəyyənləşdirir. Bu standartlar əsasında müxtəlif ölkələr gələcəkdə ikinci, üçüncü, dördüncü Avropa Oyunlarını keçirəcəklər.

Yunanıstan ilk Olimpiya Oyunlarının vətəni sayıldığı kimi, Azərbaycan da ilk Avropa Oyunlarının vətəni kim tarixdə qalacaq!

Olimpiya Oyunlarının məşəli Yunanıstandan, Avropa Oyunlarının məşəli Azərbaycandan alovlanacaq!

Qoy, ocağımız, məşəlimiz heç zaman sönməsin!

Qurtuluşumuzun 22-ci ildönümü ərəfəsində bu, ən böyük diləyimizdir...

**Fəttah HEYDƏROV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan Ağsaqqallar Şurasının sədri.**
***«Azərbaycan» qəzeti, 11 iyun 2015-ci il.***